# MAQSUD ŞEYXZADƏNİN "ƏLİŞİR NƏVAİ YARADICILIĞINDA FOLKLOR MOTİVLƏRİ" TƏDQİQATI ƏSASINDA

*(Maqsud Şeyxzadənin "Qəzəl mülkünün sultanı" kitabından)*

**Prof.Dr.Almaz ÜLVİ BİNNATOVA**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr" şöbəsinin müdiri, Bakı,* almazulvi1960@mail.ru
orcid iD – 0000-0001-7991-3969

**DOI:** https://doi.org/10.5281/zenodo.15290973

***Xülasə:*** *Maqsud Şeyxzadə "Əlişir Nəvainin yaradıcılığında folklor motivləri" adlı tədqiqatında qeyd edir ki, Nəvai yaradıcılığında yalnız yüksək bədii-estetik dəyərə malik klassik poeziya nümunələri ilə məhdudlaşmır, o, həm də xalqın ruhunu, arzularını və düşüncələrini özündə əks etdirən bir sənət abidəsidir. Dahi sənətkar öz əsərlərində xalq ədəbiyyatından çoxşaxəli və sistemli şəkildə istifadə etmişdir. Onun poeziyasında xalq nağıllarının süjetləri, atalar sözləri, məsəllər, mahnılar, laparlardan istifadə edilməsi bu fikri bir daha sübut edir.*

*Tədqiqatda Əlişir Nəvainin folklordan aldığı süjetlər və onların poeziyasında bədii tərtibatı araşdırılır. Burada diqqətçəkən məqamlardan biri odur ki, şair sadəcə mövcud nağıl və əfsanələri yenidən poetik dilə salmaqla kifayətlənmir, həm də onları ideya və məzmun baxımından zənginləşdirir. O, əsərlərində xalqın həyat tərzini, sosial ədalət axtarışlarını və humanist duyğularını özünəməxsus şəkildə ifadə edir. Eyni zamanda Nəvainin bədii üslubunun formalaşmasında folklorun rolunu vurğulayır. Burada onun "Fərhad və Şirin", "Səbai-Səyyar", "Məhbubul-qülub" və digər əsərlərində xalq atalar sözlərindən, məsəllərdən və ritmik ifadələrdən necə istifadə etdiyi təhlil olunur. Həmçinin, Nəvainin özünün yeni atalar sözləri yaratdığı və onların xalq arasında yayılması məsələsi xüsusi diqqətəlayiqdir. Bu, onun xalqın dilini və düşüncə tərzini nə qədər dərindən bildiyini və onu incəsənət səviyyəsinə yüksəltdiyini göstərir.*

*Bundan əlavə, tədqiqatda Nəvainin xalq həyatına, onun sosial-iqtisadi problemlərinə xüsusi diqqət yetirdiyini vurğulayır. Su qıtlığının Orta Asiya xalqları üçün həyati əhəmiyyət daşıdığı bir dövrdə "Nəhrul-Həyat" və "Bahrun-nəcat" layihələrinin təsviri Nəvainin yalnız şair deyil, həm də xalqına xidmət edən bir dövlət adamı və maarifçi olduğunu nümayiş etdirir.*

*Ümumilikdə, Maqsud Şeyxzadə tədqiqatında göstərir ki, Əlişir Nəvai xalqdan uzaq bir saray şairi deyil, əksinə, onun poeziyası xalqın ruhu və mənəvi dünyası ilə sıx bağlıdır. O, folkloru yalnız bir bədii vasitə kimi görməmiş, onu öz əsərlərinin əsas ruhuna çevirmişdir. Bu isə Nəvai poeziyasının yüz illər keçməsinə baxmayaraq, hər daim oxucuya doğma və təsirli görünməsinin əsas səbəblərindən biridir.*

***Açar sözlər:*** *Əlişir Nəvai, Maqsud Şeyxzoda, folklor motivləri, xalq ədəbiyyatı, bədii-estetik dəyər, atalar sözləri və məsəllər, ictimai ədalət, Nəvai poetikası.*

***Annotatsiya:*** *Maqsud Sheyxzoda "Alisher Navoiy ijodida folklor motivlari" nomli tadqiqotida qayd etadi: Navoiy ijodi faqat yuqori badiiy-estetik qadriyatga ega bo'lgan klassik she'riyat namunalarigina emas, balki xalqning ruhi, orzu-umidlari va fikrlarini o'zida aks ettirgan san'at yodgorligidir. Buyuk ijodkor o'z asarlarida xalq adabiyotidan ko'p qirrali va tizimli ravishda foydalangan. Uning she'riyatida xalq ertaklari syujetlari, maqollar, matallar, qo'shiqlar va laparlar qo'llanishi ushbu fikrni yana bir bor tasdiqlaydi.*

*Tadqiqotda Alisher Navoiy xalq og'zaki ijodidan olgan syujetlar va ularning she'riyatidagi badiiy ifodasi tahlil qilinadi. E'tiborga molik jihatlardan biri shundaki, shoir faqat mavjud ertak va afsonalarni she'riy shaklda qayta yaratish bilan cheklanib qolmay, balki ularni mazmun va g'oya jihatidan boyitadi. U o'z asarlarida xalq hayot tarzi, ijtimoiy adolat izlanishlari va insonparvarlik tuyg'ularini o'ziga xos tarzda aks ettiradi. Shuningdek, Navoiyning badiiy uslubining shakllanishida folklorning roli ta'kidlanadi. Tadqiqotda uning "Farhod va Shirin", "Sab'ai Sayyor", "Mahbub ul-qulub" kabi asarlarida xalq maqollari, matallari va ritmik ifodalardan qanday foydalangani tahlil qilinadi. Bundan tashqari, Navoiyning o'zi yangi maqollar yaratib, ularning xalq orasida keng tarqalishi masalasi ham alohida e'tiborga loyiq. Bu holat shoirning xalq tili va tafakkurini qanchalik chuqur bilganini hamda uni san'at darajasiga ko'targanini ko'rsatadi.*

*Shuningdek, tadqiqotda Navoiyning xalq hayoti va uning ijtimoiy-iqtisodiy muammolariga alohida e'tibor qaratgani ta'kidlanadi. O'rta Osiyo xalqlari uchun suv tanqisligi nihoyatda muhim masala bo'lgan bir davrda "Nahr ul-hayot" va "Bahr un-najot" loyihalarining tasviri Navoiyning nafaqat shoir, balki xalqiga xizmat qilgan davlat arbobi va ma'rifatchi ekanini namoyon etadi.*

*Umuman olganda, Maqsud Sheyxzoda tadqiqotida Alisher Navoiy saroy shoirigina emas, balki xalq bilan mustahkam bog'liq ijodkor ekanini ko'rsatadi. U folklorni shunchaki badiiy vosita sifatida emas, balki o'z asarlarining asosiy ruhi sifatida qabul qilgan. Aynan shu jihat Navoiy she'riyatining asrlar o'tishiga qaramay, hamon o'quvchi qalbiga yaqin va ta'sirli bo'lishining asosiy sabablaridan biridir.*

***Kalit so'zlar:*** *Alisher Navoiy, Maqsud Sheyxzoda, folklor motivlari, xalq adabiyoti, badiiy-estetik qadriyat, maqollar va matallar, ijtimoiy adolat, Navoiy poetikasi.*

***Abstract:***

*In his research titled "Folklore Motifs in Alisher Navoi's Creativity," Maqsud Sheykhzoda states that Navoi's literary work is not limited to classical poetry of high artistic and aesthetic value. It is also a monument of art that reflects the spirit, aspirations, and thoughts of the people. The great poet systematically and extensively utilized folk literature in his works. The use of folk tales, proverbs, sayings, songs, and rhythmic expressions in his poetry further proves this point.*

*The study examines the themes Navoi borrowed from folklore and their artistic adaptation in his poetry. One of the significant aspects highlighted is that the poet did not merely retell existing tales and legends in a poetic language; he also enriched them in terms of ideas and content. In his works, he uniquely portrays the lifestyle of the people, their quest for social justice, and their humanitarian emotions. The role of folklore in shaping Navoi's artistic style is also emphasized. The research analyzes how he incorporated folk proverbs, sayings, and rhythmic expressions in "Farhad and Shirin," "Sab'ai Sayyar," "Mahbub al-Qulub," and other works. Additionally, Navoi's creation of new proverbs and their subsequent spread among the people is given special attention. This demonstrates how deeply he understood the people's language and way of thinking, elevating it to the level of high art.*

*Furthermore, the study highlights Navoi's keen interest in the lives of common people and their socio-economic struggles. During a period when water scarcity was a critical issue for the peoples of Central Asia, his descriptions of projects such as "Nahr al-Hayat" and "Bahr al-Najat" illustrate that Navoi was not just a poet but also a statesman and an educator who served his people.*

*Overall, Maqsud Sheykhzoda's research shows that Alisher Navoi was not a distant court poet but rather deeply connected to the soul and moral world of his people. He did not view folklore*

*merely as a literary tool but made it the essence of his works. This is one of the key reasons why Navoi’s poetry continues to feel familiar and impactful to readers even after centuries.*

***Keywords:*** *Alisher Navoi, Maqsud Sheykhzoda, folklore motifs, folk literature, artistic and aesthetic value, proverbs and sayings, social justice, Navoi’s poetics.*

Məqalə Əlişir Nəvainin yaradıcılığında xalq ədəbiyyatının və folklor motivlərinin oynadığı mühüm rolu araşdırır. Müəllif haqlı olaraq vurğulayır ki, Nəvainin əsərləri yalnız yazılı Şərq poeziyasının təsiri ilə deyil, eyni zamanda, xalq yaradıcılığı ilə də sıx bağlıdır. Xüsusilə “Xəmsə”nin süjetlərinin folklor qaynaqlarından bəhrələnməsi bu əsərlərin köklərinin nə qədər qədim olduğunu göstərir.

“Əlişir Nəvainin yaradıcılığında folklor motivləri”nin əsas tezislərindən biri budur ki, Nəvainin istifadə etdiyi süjetlərin bir çoxu xalq arasında qədimdən mövcud olan nağıl, əfsanə və rəvayətlərdən qaynaqlanır. Müəllif bu fikri dəstəkləmək üçün ədəbiyyat tarixindən nümunələr gətirir. Məcnun obrazının yazılı ədəbiyyatda birbaşa yaradılmadığını, əksinə, folklor köklərinə malik olduğunu göstərmək üçün IX-X əsrlərə aid İbn Quteybə və Əbu Cəfər Əli əl-İsfəhaninin əsərlərinə istinad edir. Bu, Orta Asiya ilə ərəb-islam dünyası arasındakı mədəni əlaqələrin sıx olduğunu və folklor süjetlərinin bu prosesdə yayıldığını təsdiqləyən mühüm arqumentlərdən biridir.

Digər bir maraqlı məqam “Xosrov və Şirin” süjetinin İran və Orta Asiya xalqlarının folklorunda uzun müddət yaşaması və nəhayət yazılı ədəbiyyata daxil olmasıdır. Firdovsinin “Şahnamə”sində bu süjetin artıq mövcud olduğunu etiraf etməsi, müəllifin əsaslandığı mənbələrdən biridir. Eyni zamanda, Bəhram Gur haqqındakı nağıllar və İsgəndərlə bağlı lətifələrin də Orta Asiya xalqları üçün yad olmadığı vurğulanır. Xüsusilə İsgəndərin Orta Asiyaya yürüşləri tarixi gerçəklik olduğu üçün bu motivlərin xalq ədəbiyyatında geniş yer alması təbiidir.

Məqalədə Nəvainin “Fərhad və Şirin” süjetinin xalq arasında yarandığını açıq şəkildə etiraf etməsi mühüm məqam kimi qeyd edilir. Nəvai bu süjetin xalq yaradıcılığının məhsulu olduğunu vurğulayaraq belə yazır: “Xalq Xosrov Pərviz tərəfindən aldadıldığı üçün ona (Fərhada) heyran, aşiq olmuşdu. Təb sahibələri onun haqqında çoxlu qəzəllər oxumuş, musiqiçilər bu qəzəllərə ahəng və muğam yaratmışdılar.”Buradan aydın olur ki, Nəvai xalqın qəhrəmanlarını tanıyır, onların əfsanələrini, hekayələrini ciddiyə alır və onları öz epik süjetlərinə daxil edir. Maraqlı bir detal isə Şirinin Fərhadın faciəsi haqqında xalq arasında oxunan mahnılar vasitəsilə xəbər tutmasıdır. Bu fakt göstərir ki, xalq ədəbiyyatı yalnız süjetlərin

mənbəyi kimi yox, həm də obrazların psixologiyasını formalaşdıran güclü təsir vasitəsi kimi çıxış edir.

Digər bir məqam Nəvainin Şapurun dilindən folklorun həqiqət və uydurma arasında mövcud olduğunu göstərən fikirləridir:

*Elin doğru və yalan sözlərindən,*
*Ki çoxunu özlərindən uydururlar,*
*Bilirdim ki, Banunun qəmli halıdır,*
*Fərhadın dərdindən böyükdür.*

Məcnun, Xosrov və Şirin, Bəhram Gur və İsgəndərlə bağlı dastanlar ilkin olaraq xalq arasında formalaşmış, sonra yazılı ədəbiyyata daxil edilmişdir.Nəvai özü də folklorun təsirini etiraf edir və xalq ədəbiyyatının əsas bədii qaynaq olduğunu qəbul edir.Folklor motivləri təkcə süjet quruluşunda deyil, həm də qəhrəmanların hiss və düşüncələrinin ifadəsində mühüm rol oynayır.

Burada xalq ədəbiyyatının iki əsas xüsusiyyəti vurğulanır: 1) xalqın düşüncə və hisslərinin ifadə vasitəsi olması; 2) onun həqiqətə yaxın olduğu qədər uydurma və fantaziyaya da açıq olması. Bu, folklorun ənənəvi funksiyalarından biridir – gerçək hadisələri bədii şəkildə yenidən yaratmaq və nəsildən-nəslə ötürmək.

Maqsud Şeyxzadə Əlişir Nəvainin yaradıcılığında folklorun təsirini yuxarıda da qeyd etdiyimiz kimi geniş şəkildə araşdırır və onun əsərlərində xalq ədəbiyyatının izlərini göstərir. Nəvainin "Xəmsə"sindəki dastan süjetlərini, o cümlədən "Fərhad və Şirin", "Məcnun və Leyli", "Xosrov və Şirin" və "İsgəndərnamə"dəki süjetlərini xalqın şifahi irsindən alıb və onları daha inkişaf etmiş poetik formaya salıb.

Burada diqqətçəkən məqamlardan biri, folklor süjetlərinin Orta Asiya və Yaxın Şərq xalqları arasında yayılması məsələsidir. Məqalə IX-X əsrlərdə Orta Asiya ilə ərəb-islam dünyası arasında sıx siyasi, mədəni və iqtisadi əlaqələrin olduğunu qeyd edərək, bu süjetlərin həmin dövrdə Orta Asiyaya keçdiyini ehtimal edir. Bu, ədəbiyyat tarixində mühüm bir məsələyə işıq salır: yəni, xalq ədəbiyyatı təkcə lokal deyil, transregional bir fenomen kimi də nəzərdən keçirilməlidir.

Məqalədə Nəvainin yalnız süjet deyil, həm də xalq ədəbiyyatının janr və üslub xüsusiyyətlərindən istifadə etdiyi vurğulanır. Bunlar arasında:*Nağıl girişləri:* Nəvai "Səba'i Səyyar" dastanında nağıllara xas olan "Bir var idi, bir yox idi" tipli girişlərdən istifadə edir. Bu, onun xalq ədəbiyyatına nə qədər bələd olduğunu göstərir.*Atalar sözləri:* O, xalqın müdrik ifadələrindən istifadə edərək yeni atalar

sözləri yaradır və bəzilərinin xalq arasında yayılmasına səbəb olur. Məsələn: "Hər kəs ki, birisinə quyu qazsa, özü qəfildən düşər o çuxura" ifadəsi günümüzdə də geniş istifadə olunan bir xalq məsəli formasındadır.*Mahnılar və laparlar:* Nəvai xalq mahnılarının və lapar[1]larda istifadə edilən "yar-yar" və "hey-hey" kimi nidaları poetik əsərlərində saxlayır və bu üslubu öz poetik dilinə uyğunlaşdırır. O, hətta "Mizanul-əvzan" əsərində bu folklor janrlarını təhlil edərək onların ritmik və poetik quruluşuna diqqət yetirmişdir.

Nəhayət qeyd edək ki, məqalənin sonunda vurğulanır ki, Nəvainin xalq ədəbiyyatına bağlılığı təsadüfi deyil; o, xalqın şairi idi və onun əsərləri xalqın dərdlərini, ümidlərini və arzularını əks etdirirdi. Xüsusilə, su probleminə toxunması və "Nəhrul-həyat" kanalını qazdırması onun sosial məsuliyyət hissini və xalq üçün gördüyü işləri göstərir.Bu məqam Nəvainin sadəcə böyük bir şair deyil, həm də xalqın ehtiyaclarını anlayan və onlar üçün real addımlar atan bir dövlət adamı və maarifçi olduğunu sübut edir.

*Maqsud Şeyxzadə bu kiçik həcmli məqaləsində* Əlişir Nəvai əsərlərinin həm sənətkarlıq baxımından, həm də ideya baxımından zəngin və əhatəli olmasının əsas səbəblərini tezis şəklində ortaya qoymuşdur. Nəvainin xalq ədəbiyyatına olan bağlılığını, onun süjetlərdən, bədii üsullardan, janrlardan və ifadələrdən necə istifadə etdiyini geniş şəkildə təsvir edir. Nəticədə Nəvainin əsərlərinin sadəcə fərdi yaradıcılıq deyil, kollektiv xalq yaddaşının ifadəsi olduğu ortaya çıxır.

Məqalə folklor və yazılı ədəbiyyat arasındakı əlaqələri araşdıran tədqiqatçılar üçün dəyərli məlumatlar təqdim edir. O, Nəvainin əsərlərinin niyə bu qədər canlı və təsirli olduğunu izah etməyə kömək edir – çünki o, xalqın dilini, hisslərini və dünya-görüşünü öz poeziyasında ustalıqla əks etdirmişdir.

**İstifadə olunan ədəbiyyat:**

1. Maksud Shayxzoda. Gazal mulkining sultoni //Asarlar. olti tomlik: turtinchi tom (Alisher Navoiy xakidagi tadkikot va makolalar majmuasi) Nashrga tayyorlovchi: N. Mallaev (1972). – Toshkent, "Gafur Gulom nomidagi adabiyot va san'at nashriyoti", 1972, бет.23-29
2. İki xalqın oğlu. Maqsud Şeyxzadə. Anadan olmasının 110 illiyi münasibətilə. Məruzələr, məqalələr və fotolar toplusu. Toplayıb nəşrə hazırlayan və elmi redaktor: Almaz Ülvi (Binnətova). - Bakı: Elm və təhsil , 2019. - 500 s. + illüstrasiyalar

[1] Lapar — Özbək xalq musiqisinin və poeziyasının ənənəvi janrlarından biridir. Bu janr əsasən musiqili dialoq formasında olur və iki ifaçının (bəzən qrupların) qarşılıqlı sual-cavab şəklində oxuduğu mahnılardan ibarətdir.